

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 53 (21.714)

16 mart 2017-ci il, cümə axşamı

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri – Latviyanın sabiq Prezidenti Vayra Vike-Freyberqa və İsgəndəriyyə Kitabxanasının direktoru İsmail Serageldinin rəhbərlik etdikləri, Serbiyanın sabiq Prezidenti Boris Tadiçin, Bolqarıstanın sabiq Prezidenti Petar Stoyanovun, Xorvatiyanın sabiq Prezidenti İvo Yosipoviçin, Rumıniyanın sabiq Prezidenti Emil Konstantineskunun, Bosniya və Herseqovinanın sabiq Baş naziri Zlatko Laqumdciyanın, Ərəb Liqasının sabiq baş katibi Əmr Musanın və UNESCO-nun xoşməramlı səfiri Marianna Vardinoyannisin daxil olduqları Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin İdarə Heyətinin nümayəndə heyətini qəbul edib.

Qonaqları salamlayan Prezident İlham Əliyev mühüm beynəlxalq tədbir – V Qlobal Bakı Forumunda iştirak etmək üçün ölkəmizə gəldiklərinə görə onlara təşəkkürünü bildirdi. Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycan artıq beşinci dəfədir, bu Foruma ev sahibliyi edəcək. Forum iştirakçıları arasında çox tanınmış şəxslərin olduğunu və həmin şəxslərin sayının ildən-ilə artdığını deyən dövlətimizin başçısı Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyətini yüksək qiymətləndirdi.

Nümayəndə heyətinə göstərilən diqqətə görə Prezident İlham Əliyevə təşəkkürünü çatdıran Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, Latviyanın sabiq Prezidenti Vayra Vike-Freyberqa qeyd etdi ki, əsası beş il əvvəl qoyulan Bakı Forumu böyük uğurlar qazanıb.

Görüşdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.



## Naxçıvan Muxtar Respublikasına yeni kənd təsərrüfatı texnikaları alınıb gətirilib





Muxtar respublikada yaz-tarla işlərinin başladığı bu günlərdən tələbata uyğun kənd təsərrüfatı texnikaları və avadanlıqlarının alınıb gətirilməsi mühüm əhəmiyyət daşıyır. Çünki aqrar sahənin inkişafında, ərzaq məhsulları istehsalının artırılmasında və itkisiz məhsul yığımında başlıca amillərdən biri də torpaq mülkiyyətçilərinin və fermerlərin müasir kənd təsərrüfatı texnikaları ilə təmin olunmasıdır. Son illər muxtar respublikada kənd təsərrüfatında mütərəqqi metodların tətbiqinə başlanmış, müasir texnikalar və texnoloji avadanlıqlar alınaraq əlverişli şərtlərlə sahibkarlara verilmişdir.

Martın 15-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən alınmış yeni kənd təsərrüfatı texnikalarına baxmışdır.

"Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin baş direktoru Vasif Məmmədov məlumat verərək demişdir ki, cəmiyyət tərəfindən bu günə qədər muxtar respublikaya 1925 texnika və texnoloji avadanlıq alınıb gətirilmiş, onlardan 1507-si sahibkarlara satılmışdır. Əkin sahələrinə uyğun bölgü aparılaraq gətirilmiş texnika və texnoloji avadanlıqlardan 119-u yerli bazalara icarəyə verilmişdir. Bundan başqa, 1927 baş damazlıq cins mal-qara xarici ölkələrdən alınaraq muxtar respublikaya gətirilmiş və lizinq yolu ilə fermerlərə satılmışdır. Cəmiyyət



aqrar sahədə fəaliyyət göstərən sahibkarların, fermerlərin, kənd əməkçilərinin sifarişləri əsasında 22 adda müxtəlif xidmətlər göstərir. Muxtar respublikada yaz-tarla işlərinin başlaması ilə əlaqədar texnikalar əsaslı təmir edilmiş və əkin işlərinə başlanmışdır.

Yeni alınan texnikalara baxış zamanı bildirilmişdir ki, sərfəli şərtlərlə uzun müddətə lizinqə verilən kənd təsərrüfatı texnikaları həm də iqtisadi cəhətdən səmərəlidir. Ötən il 9 "New Holland" markalı traktor, 25 kotan, 90 əl üçün otbiçən, 6 dəst yağış üsulu ilə suvarma sistemi və digər texnoloji avadanlıqlar olmaqla 240 ədəd texnika alınaraq muxtar respublikaya gətirilmişdir. Hazırda muxtar respublikada yeni alınan suvarma sistemləri də 40 faiz güzəştlə satılır. 2017-ci ilin ötən dövründə isə 41 texnika alınmışdır. Onlardan 9-u kotan, 6-sı gübrəsəpən, digərləri isə müxtəlif texnika və texnoloji avadanlıqlardır. Müasir texnika və avadanlıqlar əkin sahələrində mütərəqqi aqrotexniki qaydaların tətbiqinə imkan verəcəkdir.

Ali Məclisin Sədri "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin bazasında yaradılan bitkiçilik və heyvandarlıq aptekinə də baxmışdır. Qeyd olunmuşdur ki, muxtar respublikada bitkiçilik, heyvandarlıq və arıçılıq sahələrində xəstəliklərə və zərərvericilərə qarşı mübarizə aparılması məqsədilə cəmiyyətin özündə və hər bir rayon bazasında bitkiçilik və heyvandarlıq apteki yaradılmışdır. Apteklərdə kənd təsərrüfatının müxtəlif sahələrində istifadə olunan dərmanlar satışa çıxarılır. Dərmanların istifadə qaydası haqqında torpaq mülkiyyətçilərinə və fermerlərə əvvəlcədən məlumat verilir.

Cəmiyyətin anbarlarında müxtəlif kənd təsərrüfatı texnikalarının ehtiyat hissələri vardır. Gübrə anbarlarında da tələbata uyğun ehtiyat yaradılmışdır.

Ali Məclisin Sədri kənd təsərrüfatında yeni innovasiyaların tətbiqinin əhəmiyyətini vurğulamış, texnikalarla təminat və texniki qulluq işinin diqqətdə saxlanılması, kənd təsərrüfatı texnikalarının və onların ehtiyat hissələrinin sifariş əsasında alınıb gətirilməsi, aqrar sahədə mütərəqqi metodların tətbiqi ilə bağlı maarifləndirmə və izahat işlərinin aparılması, bu işdə televiziyanın imkanlarından istifadə olunması ilə bağlı tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Dəmir yolu nəqliyyatından istifadə diqqət mərkəzindədir

Naxçıvan Muxtar Respublikasında dəmir yolundan istifadə sahəsində ardıcıl tədbirlər görülür. Dəmir yolu infrastrukturunun müasirləşdirilməsi sahəsində görülən işlərin nəticəsidir ki, fevral ayında Ordubad-Vəlidağ sahəsində hərəkətdə olan yük-sərnişin qatarlarının fasiləsiz işi təmin olunmuşdur. Bu dövrdə Yük və Sərnişin Daşımaları İdarəsi tərəfindən muxtar respublika ərazisindəki ayrı-ayrı tikinti təşkilatlarının ünvanına 2160 ton müxtəlif təyinatlı yük və 11 min 113 sərnişin daşınmışdır.

Culfa Lokomotiv Deposunda lokomotivlər 4 dəfə texniki baxışdan keçirilmiş, Culfa İstismar Vaqon Deposunda hesabat ayında 1 sərnişin vaqonu cari təmir edilmişdir. Defektoskop briqadası tərəfindən 192 kilometr baş yol, 39 kilometr stansiya yolları və 78 dəst yoldəyişən qurğu yoxlanılmışdır.

Texniki İnzibati Binaların Təmir-Tikinti İdarəsi tərəfindən fevral ayında Ordubad dəmiryol sərnişin vağzalı, eləcə də Yol Sahəsinin inzibati binalarında və yolun 369-cu kilometrində yerləşən 4 saylı yol məntəqəsində aparılan yenidənqurma, Ordubad Yol Sahəsinin yardımçı binalarında, Ordubad İdarəetmə Mərkəzində və Naxçıvançay Təhlükəsizlik Komandasının inzibati binasında aparılan əsaslı təmir işləri, Culfa stansiyasında müasir tələblərə cavab verən yeni İstismar Vaqon Deposunun isə tikintisi davam etdirilmişdir.

***"Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin mətbuat xidməti***

# Moskva müqaviləsi Naxçıvanın ərazi mənsubiyyəti məsələsini həll etdi

***Ötən əsrin 20-ci illərində Azərbaycanda, eləcə də Naxçıvan diyarında baş verən hadisələr çox mürəkkəb, ziddiyyətli və çətin olmuşdur. Azərbaycanın düşdüyü daxili, qarşılaşdığı beynəlxalq vəziyyət elə ağır idi ki, bir sıra hallarda Naxçıvan bölgəsinə lazımi səviyyədə kömək göstərə bilmirdi. Bundan istifadə edən məkrli düşmənlərimiz olan erməni daşnakları Naxçıvan diyarına sahib olmaq üçün bütün vasitələrdən istifadə edirdilər.***

Yaranmış vəziyyətdən istifadə edən erməni qaniçənləri siyasi və hərbi yolla Naxçıvanı ələ keçirmək uğrunda mübarizəyə başlamışdılar. Bir sıra kapitalist dövlətlərinin himayəsindən, yardım və dəstəyindən istifadə edən erməni cəlladları Naxçıvan diyarına hərbi basqınlar edir, şəhər və kəndləri dağıdır, ağlasığmaz vəhşiliklər və qırğınlar törədir, lakin yerli əhalinin inadlı mübarizəsi, qəhrəmanlığı sayəsində onlar öz məkrli niyyətlərinə nail ola bilmirdilər. Lakin bununla belə, 1918-1920-ci illərdə erməni daşnaklarının hərbi basqınları nəticəsində Naxçıvan diyarında faciəli hadisələr baş vermişdi. Böyük kapitalist dövlətlərinin müdaxiləsi, ikili siyasət yeritmələri, qonşu dövlətlərin müəyyən münasibəti Naxçıvan məsələsini beynəlxalq müstəviyə çıxarmışdı. Nəticədə, bu problem təkcə ölkə daxilində deyil, həm də qonşu ölkələrdə və beynəlxalq təşkilatlarda müzakirə edilmişdi. Naxçıvan diyarının gələcək tarixi taleyində, onun Azərbaycanın tərkibində muxtariyyət statusunda qalmasında keçən əsrin 20-ci illərində bağlanan müqavilələrin böyük rolu olmuşdur.

20-ci illərdə beynəlxalq münasibətlərdə və dünyada yaranmış şəraitlə əlaqədar Türkiyə ilə Rusiyanın yaxınlaşmasına, onlar arasında isti münasibətlərin və son nəticədə, bu dövlətlər arasında müəyyən müqavilələrin baş tutmasına gətirib çıxardı. Əslində, bir sıra dövlətlər Türkiyə-Rusiya yaxınlaşmasını istəmirdilər. Çünki Birinci Dünya müharibəsində qalib gəlmiş böyük dövlətlər bir tərəfdən Türkiyəni məğlub edib, özlərindən asılı vəziyyətə salmaq, digər tərəfdən isə Rusiyada bolşevik hökumətini devirmək, inqilabi Türkiyənin köməyi ilə çevrilişlə Azərbaycanda hakimiyyətə gəlmiş bolşevik hökuməti ilə yaxınlaşmasına yol verməməyə çalışırdılar.

Azərbaycanda sovet hakimiyyətinin qələbəsindən sonra da, daşnak silahlı qüvvələrinin təcavüzkar hərəkətləri nəticəsində Naxçıvan diyarında gərginlik hələ də davam edirdi. RSFSR hökumətinin daşnak hökuməti ilə danışıqlar vasitəsilə münaqişəni həll etmək cəhdi baş tutmadı. 1920-ci ilin iyulunda Naxçıvan, Culfa və Ordubad əhalisi Nəriman Nərimanova, Q.Orconikidzeyə məktubla müraciət etdi. Məktubda deyilirdi: "Yerli əhali öz qüvvəsi ilə daşnaklardan müdafiə olunur. Qızıl ordunun köməyi ilə bizim diyarı azad etməyi və Azərbaycanla birləşdirməyi təmin etməyi təvəqqe edirik".

XI Ordunun köməyi ilə 1920-ci il iyulun 28-də Naxçıvan diyarında sovet hakimiyyəti quruldu və Naxçıvan SSR elan edildi, respublikanın ali hakimiyyət orqanı – Naxçıvan İnqilab Komitəsi yaradıldı. Avqustun 10-da Naxçıvan İnqilab Komitəsi Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanova məktub göndərdi. Məktubda deyilirdi: "Naxçıvan camaatının çox böyük əksəriyyətinin qərarı ilə Naxçıvan diyarı özünü Azərbaycan SSR-in ayrılmaz tərkib hissəsi hesab etmişdir".

Rusiya rəhbərlərinə gəldikdə isə onlar Türkiyə ilə diplomatik münasibətlər yaratmaq istəsələr də, Ermənistandan Türkiyəyə qarşı bir vasitə kimi də istifadə etməyə çalışırdılar. Ermənistan, Azərbaycan və Türkiyənin qarşılıqlı münasibətləri məsələlərinin həllində İ.Stalin Rusiyanın mənafelərindən çıxış edərək həmişə Ermənistanın mövqeyini müdafiə edirdi. O deyirdi: "Əgər bilmək istəyirlərsə ki, Zəngəzur və Naxçıvan kimə məxsus olmalıdır, onları Ermənistanın indiki hökumətinə vermək olmaz, sovet hökuməti olanda vermək olar". İ.Stalinin bu çıxışından 25 gün sonra Ermənistanda sovet hakimiyyəti quruldu. Bu, o demək idi ki, İ.Stalin və Rusiya rəhbərliyi də Zəngəzur və Naxçıvanı Ermənistana vermək istəyirdi. Ermənistan bolşeviklərin nəzarətinə keçən kimi Azərbaycan Hərbi İnqilab Komitəsi 1 dekabr 1920-ci ildə bəyanatla çıxış etdi. Hərbi İnqilab Komitəsinin sədri Nəriman Nərimanovun imzası ilə yayılan bəyanat Rusiyanın diktəsi ilə yazılmışdı və "iki sovet respublikası arasında ərazi mübahisələrinin" Azərbaycanın milli mənafelərinə zidd şəkildə həll edilməsinə yönəlmişdi.

Məlum bəyanatdan sonra Naxçıvan bölgəsində daxili vəziyyət xeyli mürəkkəbləşmiş, onun üstündə mübahisə və münaqişələr səngiməkdənsə xeyli kəskinləşmişdi. Naxçıvan məsələsi Rusiya-Ermənistan və Türkiyə-Ermənistan danışıqlarında mühüm yer tuturdu. Ermənistan Rusiya və Türkiyə arasında siyasi manevrlər edərək onların münasibətlərindən və yaranmış şəraitdən istifadə etməyə çalışırdı. Rusiyaya gəldikdə isə o, Türkiyə ilə yaxınlaşmaq xəttini yeritsə də, erməniləri də müdafiə etməsini gizlətmirdi. Ermənistan isə Naxçıvan və başqa ərazilərlə bağlı niyyətlərini həyata keçirmək üçün ən çox Rusiyaya ümid bəsləyirdi. Ermənistan 1920-ci il dekabrın 2-də həm Rusiya, həm də Türkiyə ilə müqavilə bağladı. RSFSR ilə Sovet Ermənistanı arasında bağlanan hərbi-siyasi sazişə görə keçmiş İrəvan quberniyasının Ermənistanın tərkibinə daxil olmasından sovet hökuməti tərəfindən mübahisəsiz tanınması qəbul edilirdi. Türkiyə ilə Ermənistan arasında bağlanan Gümrü (Aleksandropol) müqaviləsi Rusiya və onun təhriki ilə Ermənistan tərəfindən qəbul edilmədi. Lakin bununla belə, bu müqaviləyə görə, Naxçıvan bölgəsinin düşmən əlinə keçməməsi üçün "həmin ərazidə hələlik Türkiyənin himayəsində yerli hökumət yaradılması" qərara alınmışdır. Gümrü müqaviləsinin 2-ci maddəsində tərəflər Naxçıvan bölgəsi ilə bağlı razılığa gəlmişdilər ki, Ermənistan Kükü dağı, Həməsur dağı, Qurdqulaq kəndi, Saat dağı, Arpaçay evləri, Qəmərli dağı, Saray-Bulaq dağları, Ararat stansiyası, Araz çayı yaxınlığındakı Aşağı Qarasunun töküldüyü yerdən zolağın cənubundakı (Naxçıvan, Şahtaxtı, Şərur) əraziyə, daha sonra referendumla təyin olunacaq idarə formasına və bu idarənin əhatə edəcəyi torpaqlara qarışmayacaq, indiki ərazidə hələlik Türkiyənin himayəsində yerli idarə yaradılacaqdır. Müqavilənin 12-ci maddəsinə əsasən Türkiyə hökuməti Şərur, Naxçıvan, Şahtaxtı və Culfa yolu ilə tranzit işlərinin sərbəstliyinin təminatını öz üzərinə götürdü.

1920-ci il dekabrın 28-də Ermənistan SSR Hərbi İnqilab Komitəsi bəyanatla çıxış edərək, Naxçıvan əhalisinə öz müqəddəratını azad surətdə təyin etmək hüququ verildiyini bildirdi. Lakin 1921-ci ilin əvvəllərindən başlayaraq heç bir bəyanat verməmiş kimi yenə də Naxçıvana qarşı haqsız ərazi iddiaları irəli sürdü.

1920-ci ildə Türkiyə xalqı öz vətəninin müstəqilliyi uğrunda mübarizə aparırdı. Türkiyənin inqilabi hökuməti Sovet Rusiyası ilə dostluq əlaqələri yaratmışdı. 1920-ci il aprelin 26-da Türkiyə Böyük Millət Məclisi yardım üçün V.İ.Leninə müraciət etdi. Həmin ilin yayından başlayaraq Türkiyə hökuməti Rusiya ilə diplomatik münasibətlər qurmaq və iki ölkə arasında dostluq müqaviləsi imzalamaq üçün fəallığını artırdı və bunun üçün Bəkir Sami bəyin başçılığı ilə nümayəndə heyəti Moskvaya gəldi. Danışıqlar nəticəsində sovet-türk müqaviləsinin layihəsi hazırlandı. Gələcəkdə Rusiya-Türkiyə danışıqlarının Bakıda keçirilməsi razılaşdırıldı. Lakin bir qədər sonra RSFSR XXİK G.Çiçerin konfransın Moskvada keçiriləcəyini və burada Azərbaycan və Ermənistan nümayəndələrinin də iştirak edəcəyini bildirdi. Əslində, bununla G.Çiçerin konfransa Azərbaycanı və Ermənistanı qatmaqla həm bu dövlətlərin xarici siyasətini öz əlində cəmləşdirmək və Türkiyəyə qarşı qoymaq, həm də gələcəkdə Güney Qafqazdakı niyyətlərini həyata keçirmək üçün zəmin hazırlamaq istəyirdi.

Türkiyə bu təkliflə razılaşmadı. Onlar Azərbaycan, Gürcüstan və Ermənistanla müqavilə bağlamaq istəyirdi. Üstəlik Türkiyə bildirirdi ki, onların Azərbaycanla heç bir mübahisəli məsələsi yoxdur. Ermənistana gəldikdə isə Türkiyə Gümrü (Aleksandropol) müqaviləsini qüvvədə hesab edir və ondan imtina etmək istəmirdi.

Azərbaycan da Rusiya tərəfindən olan təklifləri qəbul etmək istəmirdi. Bununla əlaqədar Azərbaycanın Rusiyadakı fövqəladə və səlahiyyətli nümayəndəsi Behbud ağa Şahtaxtinski M.D.Hüseynova yazırdı: "...Mən şəxsən konfransda Azərbaycanın iştirakının əleyhinəyəm. Çünki mən orada heç nə haqqında qətiyyətli danışa bilmərəm... Məni Anadoluda çoxlu kombinasiyalar gözləyir və Azərbaycana heç bir aidiyyəti olmayan məsələlər barədə türklərə qarşı konfransda çıxış etsəm, bütün bunların hamısını itirə bilərəm. Rusiya türklərlə danışıqları dostluq və qardaşlıq haqqında aparır, ittifaq haqqında aparmır".

1921-ci ilin fevral ayında Ankara hökumətinin yeni xarici işlər naziri Yusif Kamal bəyin başçılığı ilə Əli Fuad və doktor Rza Nurdan ibarət diplomatik nümayəndə heyəti Moskvaya gələrək yeni danışıqlara başladı. Danışıqlarda Rusiya tərəfindən XXİK G.Çiçerin və RSFSR MİK üzvü C.Qorxmazov iştirak edirdi. Müzakirələr çox gərgin keçmiş və hətta danışıqlar bəzən pozulmaq həddinə çatmışdı. Bir sıra məsələlərlə yanaşı, danışıqlarda Naxçıvan məsələsinə də xüsusi əhəmiyyət verilmişdi. Türkiyənin bu məsələyə böyük önəm verməsi bölgənin strateji və geosiyasi mövqeyi ilə yanaşı, həm də Naxçıvanın Türkiyə-Azərbaycan əlaqələrində ən yaxın məsafədə yerləşməsi idi. Mustafa Kamal Paşa Yusif Kamal bəyə Naxçıvanın türk qapısı olduğunu xatırlatmış və buna görə hərəkət edilməsini bildirmişdi. Yusif Kamalın xatirələrindən bəlli olur ki, danışıqlarda Naxçıvana dair müzakirələr xeyli uzanmış, İ.Stalin "Naxçıvan üzərində nə üçün bu qədər israr edirsiniz?" sualına "orası türk qapısıdır, ondan" cavabını almışdı.

Moskva danışıqlarında Azərbaycanın təmsilçisi Behbud ağa Şahtaxtinski də iştirak etmiş və uğurlu nəticənin əldə edilməsində onun mühüm xidməti olmuşdur. Belə ki, o, 1921-ci il martın 1-də V.İ.Leninə göndərdiyi məktubda Naxçıvan, Zəngəzur, Dağlıq Qarabağ ərazilərinin gələcəyindən duyulan rahatsızlığı çatdırmış, bu mahalların milli tərkibi və coğrafiyasına dair arayışları da əlavə etmiş, Güney Qafqazda sərhəd məsələləri və xüsusilə də Naxçıvan bölgəsi ilə bağlı faydalı təkliflər vermişdi. Lenin bunlarla tanış olduqdan sonra onu Siyasi Büroya göndərmişdi. Behbud ağa Şahtaxtinskinin məktubu martın 16-da Stalinin, Çiçerinin və başqalarının iştirakı ilə baxılmış və onun təklifləri nəzərə alınmaqla Azərbaycanın himayəsində Naxçıvana muxtariyyət statusu verilməsi haqqında qərar qəbul olunmuşdu.

Bütün bunlar Moskva müqaviləsində ifadə olundu. Bir aya yaxın davam etmiş danışıqların yekunu 1921-ci il martın 16-da imzalanmış "Dostluq və qardaşlıq haqqında" RSFSR-Türkiyə müqaviləsində öz əksini tapdı. Moskva müqaviləsi 16 maddədən və 2 əlavədən ibarət idi.

Müqavilə ilə tərəflər onlara zorla qəbul etdirilən ikitərəfli və beynəlxalq müqavilələri rədd edirdilər. Türkiyə hökuməti tərəfindən qəbul edilməyən müqaviləni Rusiya hökuməti də rədd edirdi. Türkiyə Batum şəhərinə və limanına suverenlik verilməsinə razı olurdu. Bu şərtlə ona qanuni idarəçilik, geniş muxtariyyət, vətəndaş hüququnun qorunması haqqı verilməli idi. Tərəflər Qara dənizin beynəlxalq statusu ilə bağlı razılığa gəlirdilər. Bu, Türkiyənin suverenliyinə, təhlükəsizliyinə, o cümlədən İstanbulun təhlükəsizliyinə xələl gətirməməli idi. Rusiya işğal rejiminin hər hansı ölkənin azad milli inkişafı ilə bir araya sığmadığını göstərirdi. Tərəflər bir-birlərinin ərazilərində hakimiyyətə gəlmək istəyən qrupların fəaliyyətinə yol verməməlidirlər. Bir ölkədən çıxıb digərində yaşayanlar yaşadıqları ölkənin qanunlarına tabe olmalı idilər. 1918-ci ilədək Rusiyaya məxsus olan ərazilərdə yaşayan vətəndaşlar öz əmlakı ilə köçüb Rusiyaya gedə bilərdi. Tərəflər 3-6 ay müddətində hərbi əsirləri və həbs olunmuş rus və türk vətəndaşlarını geri qaytarmalı idilər. Tərəflər konsulluq münasibətləri qurmalı, iqtisadi və maliyyə məsələlərinə dair saziş imzalamalı idilər. Onlar Qafqaz respublikaları qarşısında öhdəlik götürürdülər və sair.

Moskva müqaviləsinin üçüncü maddəsi və I (B) əlavəsi bilavasitə Naxçıvanla bağlı idi. Müqavilənin 3-cü maddəsinə əsasən belə bir qarşılıqlı qərar qəbul edildi ki, Naxçıvan vilayəti bu müqavilənin I (B) əlavəsində göstərilən sərhədlərdə Azərbaycanın himayəsi altında həmin protektoratı Azərbaycanın heç bir üçüncü dövlətə güzəştə getməməsi şərti ilə muxtar ərazi təşkil edir. "Naxçıvan ərazisi" adlı I (B) əlavəsində isə bölgənin sərhədləri müəyyənləşdirildi: "Ararat stansiyası -Saray-Bulaq dağları-Kömürlüdağ -Sayatdağ-Qurdqulaq kəndi-Həməsur dağı-yüksəklik (8022)-Küküdağ və keçmiş Naxçıvan qəzasının şərq inzibati sərhədi".

Beləliklə, Rusiya hökumətinin ermənipərəst mövqeyinə və erməni kommunist riyakar siyasətinə baxmayaraq, Naxçıvan əhalisinin qətiyyətli, dönməz iradəsi, Türkiyənin prinsipial və ədalətli mövqeyi və Behbud ağa Şahtaxtinski kimi milli mənafelərdən çıxış edən siyasi xadimlərin səyləri ilə Naxçıvan Azərbaycanın tərkibində saxlanıldı. V.İ.Lenin Türkiyə ilə sülh sazişindən danışarkən demişdi ki, bu, "bizi Qafqazdakı daimi müharibələrdən xilas edir". Lakin bu sözlər özünü doğrultmadı. Nəriman Nərimanov qeyd etmişdir ki, "Sovet Rusiyası və Türkiyə ilə müqaviləyə əsasən Naxçıvan Azərbaycanın protektoratlığı altında müstəqil respublika elan olunur. Orda bizim nümayəndəmiz olacaqdır və biz bütün münasibətlərdə Naxçıvana xidmət edəcəyik". Yusif Kamal bəy isə yazmışdır ki, "Naxçıvan müsəlmanları bir daha soyqırımına məruz qalacağı halda türk ordusunun buna biganə qalmayacağı rəsmi olaraq sənədləşdirilmişdir".

Moskva müqaviləsinin imzalanmasının böyük tarixi əhəmiyyəti vardır. İlk növbədə, bu müqavilə Rusiya ilə Türkiyə arasında mövcud olan problemləri həll etdi. Rusiya və Türkiyə sıx ittifaqda birləşdi, təbii müttəfiqə çevrildilər. Moskva müqaviləsi Azərbaycanın bütövlüyünü qorudu və Naxçıvanın ərazi mənsubiyyəti məsələsinə aydınlıq gətirdi. Bu müqaviləyə görə qədim türk-oğuz yurdu olan Naxçıvan Azərbaycan sərhədləri içərisində qaldı.

Bütün bunlarla bərabər, erməni daşnakları XX əsr boyu Naxçıvan iddialarından əl çəkməmiş, 90-cı illərin əvvəllərində buraya silahlı basqınlar etmiş, Moskva və Qars müqavilələrinin ləğv edilməsi üçün xeyli fəallaşmışlar. Son illərdə isə onlar bu barədə bir sıra dövlətlərə və beynəlxalq təşkilatlara müraciət etmişlər.

Erməni işğalına məruz qaldığımız, Naxçıvan Muxtar Respublikasına erməni iddialarının artdığı indiki zamanda Moskva beynəlxalq müqaviləsinin əhəmiyyəti daha aydın şəkildə nəzərə çarpır və Naxçıvanın muxtariyyətinin qorunmasında əvəzsiz rol oynayır. Təsadüfi deyil ki, ümummilli lider Heydər Əliyev 1992-ci ilin mart ayında Türkiyə Cümhuriyyətində olarkən Moskva və Qars müqavilələrini söhbət mövzusuna çevirmiş, bir sıra məsələləri dərindən açıqlamış (xüsusilə muxtar respublikanın statusu məsələsi) və bu müqavilələrin xalqımızın həyatındakı tarixi rolunu yüksək qiymətləndirmişdir.

Göründüyü kimi, Naxçıvanın muxtariyyəti statusu bu gün qüvvədə olan, imzalanmasından 96 il keçən Moskva beynəlxalq müqaviləsi ilə təsdiqlənir. Bu muxtariyyət milli-etnik yox, sırf siyasi amillərlə, Naxçıvanın özünəməxsus geopolitik və tarixi-coğrafi mövqeyi ilə şərtlənib. Müqaviləni imzalayan heç bir dövlət onu birtərəfli qaydada ləğv edə bilməz. Çünki bu, beynəlxalq müqavilələr haqqında 1969-cu il Vyana konvensiyasına, 1975-ci il Helsinki müşavirəsinin Yekun Aktına əməl olunmaması kimi qiymətləndirilir.

*Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət statusunun verilməsindən 96 ildən artıq vaxt keçir. Bu, beynəlxalq Moskva müqaviləsi ilə rəsmiləşdirilib. Özü də müddətsiz dövr üçün. Bu müqavilənin müddətsiz bağlanması onun tarixi əhəmiyyətini daha da artırmış olur. Dövlətlərarası münasibətlər baxımından bu növ müqavilələr daimilik xarakterinə malikdir. Mübaliğəsiz demək olar ki, ifrat erməni millətçilərinin Moskva müqaviləsini qüvvədən salmaq üçün dəfələrlə müxtəlif hiylələrə əl atmalarına baxmayaraq, bu tarixi sənəd uzun illərdir ki, özünün həyat vəsiqəsini daşıyır və Naxçıvanın təhlükəsizliyini qoruyur.*

**İsmayıl HACIYEV**
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***

## "Əl-Fəcr" qəzetində Naxçıvan barədə məqalə dərc olunub


الفجر
قلعة النجه في نخشوان تقف شاهدا على الملاحم البطولية لأبناء الشعب الأذربيجاني
تجربة لا تنسى من المغامرة والمتعة والإثارة في نخشوان

Birləşmiş Ərəb Əmirliklərinin nüfuzlu "Əl-Fəcr" qəzetində Naxçıvan haqqında məqalə dərc olunub. Qəzetin baş redaktoru Şərif Əl-Bəsilin Naxçıvan Muxtar Respublikası haqqında silsilə məqalələrinin davamı olaraq martın 13-də "Əl-Fəcr" qəzetində bir səhifə həcmində dərc olunan və fotoşəkillərin yerləşdirildiyi ***"Təbiət əfsanəsi. Onun sehri Batabat yaylağı və üzən adasındadır"*** sərlövhəli məqaləsi böyük maraqla qarşılanıb.

Məqalənin müqəddiməsində qəzetin baş redaktoru qədim tarixi, təbii sehri, məftunedici həyatiliyi, eləcə də tarixi, dini, antropoloji, mədəni və turizm abidələri ilə zəngin Naxçıvan Muxtar Respublikasını bir dəfə ziyarət etməyin kifayət olmadığını oxucuların diqqətinə çatdıraraq, hər dəfə bu gözəl məkana qayıtmağın yeniliklərin kəşfi ilə yadda qaldığını qabardır. Naxçıvanı tərk etdikdən sonra burada mövcud sehrin, cazibədarlığın və gözəlliyin insanı növbəti səfər barədə düşündürdüyünü və burada dünya miqyasında çox da olmayan nadir incilərdən daim zövq almağın mümkünlüyünü vurğulayır.

Eyni zamanda Şərif Əl-Bəsil Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi altında qısa vaxt kəsimində bu möhtəşəm diyarda hərtərəfli inkişafın, müasir infrastrukturun nəzərə çarpdığını qeyd edir və bütün bunların xaricdən, xüsusən də ərəb ölkələrindən turistlərin cəlb edilməsi işində müstəsna addımlar olduğunu vurğulayır.

Şərif Əl-Bəsil Naxçıvan Muxtar Respublikasında hər növ turizm üçün imkanların mövcudluğunu qabardaraq, dünyanın ən qədim insan məskənlərindən biri sayılan Naxçıvan ərazisində aparılan arxeoloji qazıntılar və tarixi araşdırmalar nəticəsində Nuh Peyğəmbərin gəmisinin məhz burada yan aldığı barədə qənaətin formalaşdığını yazır, "Naxçıvan" sözünün etimologiyasını xatırladır, "Qurani-Kərim"in "Əl-Kəhf" surəsində göstərilən mağaranın məhz bu sehrli diyarda yerləşdiyini oxucuların nəzərinə çatdırır və həmin yerin "Əshabi-Kəhf" Dini-Mədəni Abidə Kompleksi kimi məşhur olduğunu oxucuların diqqətinə çatdırır.

Ötən məqalələrində Naxçıvanda müalicəvi turizm haqqında ətraflı bəhs etdiyini xatırladan Şərif Əl-Bəsil bu dəfə təbiət qoynunda istirahətə üstünlük verənlərə xitabən Batabat yaylağını, Ağbulaq İstirahət Mərkəzini və digər ecazkar məkanları ziyarət etməyi tövsiyə edir.

Batabat yaylağından bəhs edən məqalənin müəllifi bu saf ərazinin coğrafi mövqeyi barədə oxuculara məlumat verir, səliqəli olan bu ərazidə havanın təmiz olduğunu, burada müxtəlif xəstəliklərə qarşı 60-dan yuxarı təbii otların bitdiyini vurğulayır və dünyada ən keyfiyyətli balın mövcud olduğunu xüsusilə qeyd edir. Eyni zamanda o, eyniadlı göldə adanın varlığını qeyd edir və küləklərin təsiri altında üzdüyünü möcüzə kimi qələmə verir.

Ağbulaq İstirahət Mərkəzinə gəlincə, baş redaktor istirahət mərkəzinin yerləşdiyi ərazinin təbii xüsusiyyətləri və bu mərkəzdə yaradılan şərait barəsində müfəssəl bəhs edir. Burada təqdim edilən təamların, eləcə də meyvə-tərəvəzin bütünlüklə orqanik olduğunu önə çəkir və istirahət mərkəzinin daim qonaqların zövqünə uyğun daha da təkmilləşdirildiyini qabardır.

Sonra Şərif Əl-Bəsil Əlincə qalasına nəzər salaraq, ilk növbədə, Azərbaycan tarixinin və xalqının qədim irsinin qorunub saxlanmasına böyük diqqətin təzahürü kimi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 11 fevral 2014-cü ildə "Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi haqqında Sərəncamını xüsusilə qeyd edir. O, oxucuları 2000 illik tarixə malik bu qalanın coğrafi mövqeyi ilə tanış edir, Əmir Teymurun ordusunun 14 illik hücumlarına qarşı Azərbaycan xalqının müqavimət, inadkarlıq və döyüş ruhunun rəmzi olaraq bu qalanın Azərbaycanın tarixində ən məşhur abidələrdən biri olduğunu vurğulayır və qalanı tam təsvir edir.

**Asya HACIZADƏ**
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Əbu-Dabi***

## Məmməd Səid Ordubadinin anadan olmasının 145 illiyi münasibətilə tədbir keçirilib

***Dünən M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında görkəmli yazıçı Məmməd Səid Ordubadinin anadan olmasının 145 illiyi münasibətilə tədbir keçirilib.***






Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova açaraq bildirib ki, Azərbaycanın istedadlı, görkəmli sənətkarlarından biri də "Molla Nəsrəddin" ədəbi məktəbinin nümayəndəsi Məmməd Səid Ordubadidir. Qüdrətli sənətkar ədəbiyyat və mədəniyyət tariximizə şair, publisist, dramaturq, tərcüməçi, jurnalist, görkəmli romançı kimi daxil olub. O, "Dumanlı Təbriz", "Gizli Bakı", "Döyüşən şəhər", "Qılınc və qələm" və başqa romanları ilə ədəbiyyat tariximizdə qüdrətli nasir kimi tanınıb. Görkəmli sənətkar Azərbaycan klassikləri haqqında bir sıra məqalələrin müəllifi olmaqla yanaşı, həm də gözəl tərcümə əsərlərinin müəllifidir. Məmməd Səid Ordubadinin ən böyük xidmətlərindən biri onun ədəbiyyat tariximizdə tarixi roman janrının əsasını qoymasıdır.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Məmməd Səid Ordubadinin irsinə, onun yaradıcılığına yüksək qiymət verib. Ulu öndərimizin hakimiyyətdə olduğu illərdə qüdrətli nasir haqqında yeni və sanballı tədqiqat əsərləri kütləvi şəkildə nəşr olunub, xatirəsinin əbədiləşdirilməsi üçün ardıcıl tədbirlər həyata keçirilib, 100 illik yubileyi ölkəmizdə və xaricdə yüksək səviyyədə qeyd olunub, əsərləri xarici dillərə tərcümə edilib.

Diqqətə çatdırılıb ki, Məmməd Səid Ordubadinin 100 illiyi münasibətilə 1972-ci ilin iyununda ədibin anadan olduğu evdə ev-muzeyi yaradılıb. Böyük yazıçı ilə bağlı 2000-dən çox eksponatın mühafizə olunduğu ikinci muzey Bakı şəhərində fəaliyyətə başlayıb. Ümummilli liderin diqqəti və qayğısı ilə görkəmli yazıçı-dramaturqun xatirəsinin əbədiləşdirilməsi ilə bağlı bir sıra tədbirlər həyata keçirilib, Azərbaycanda, o cümlədən qədim diyarımızda bir sıra küçə, mədəniyyət müəssisəsinə, kitabxanalara onun adı verilib. 1972-ci ildə Məmməd Səid Ordubadinin adını daşıyan Naxçıvan Muxtar Respublika Kitabxanasının qarşısında yazıçının büstü ucaldılıb.

Görkəmli yazıçı və dramaturq, ictimai xadimin irsinə, onun yaradıcılığına bu gün də böyük diqqət və qayğı göstərilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan ədəbiyyatı klassiklərinin əsərlərinin latın qrafikası ilə nəşr edilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamına əsasən, böyük yazıçının seçilmiş əsərləri oxuculara təqdim edilib. Dövlət başçısının 10 aprel 2012-ci il tarixli Sərəncamı ilə ədibin 140 illik yubileyi ölkəmizdə və muxtar respublikamızda geniş qeyd edilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 17 aprel 2012-ci il tarixli Sərəncamı ilə Məmməd Səid Ordubadinin 140 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı təsdiq edilib, bu sərəncama əsasən elmi konfranslar keçirilib, sərgilər təşkil edilib, "M.S.Ordubadi taleyi və sənəti" məqalələr toplusu nəşr olunub, poçt marka və zərfləri buraxılıb.

Nazir çıxışını Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin böyük ədibin 140 illiyi ilə bağlı yubiley tədbirində dediyi sözlərlə bitirib. Həmin yubiley tədbirində Ali Məclisin Sədri deyib: ***"Məmməd Səid Ordubadi yaradıcılığını təhlil edərkən aydın görmək mümkündür ki, o, tarixi roman və sənədli əsərlərini təkcə tarixdə yol verilmiş boşluqları doldurmaq xatirinə yaratmamışdır. Bununla yanaşı, o eyni zamanda oxucusuna, bütövlükdə isə mənsub olduğu xalqa buraxılmış səhvlərin aradan qaldırılmasını, onların təkrar olunmamasını da təlqin edirdi. Tarixi keçmişi öyrənməyi vətənpərvərlik və milli iftixar hissinin təzahürü hesab edən ədib, bununla da, azərbaycanlı olmağın nümunəsini göstərmişdir. Bütün bunlar deməyə əsas verir ki, Məmməd Səid Ordubadinin zəngin yaradıcılığı millilik və bəşəriliyi, yüksək vətəndaşlıq qayəsini, qabaqcıl ideyaları özündə birləşdirən Azərbaycançılıq məktəbidir. Bu məktəbin tariximizdə və ədəbiyyatımızda oynadığı rol yüksək qiymətə layiqdir".***

Sonra Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Əliyev "Məmməd Səid Ordubadinin şeir yaradıcılığı" mövzusunda çıxış edərək bildirib ki, görkəmli ədib yaradıcılığa şeirlə başlayıb. Məmməd Səid Ordubadi ilk şeirlərində "Şərqi-Rus" qəzetinin ideyalarını tərənnüm edib, xalqı tərəqqiyə, elmə, mədəniyyətə səsləyib. Bu şeirlərin bir çoxu söz ustadının "Qəflət" və "Vətən və hürriyyət" adlı kitablarında toplanıb. Qeyd edilib ki, Məmməd Səid Ordubadinin gündəlik hadisələrə, siyasi-ictimai mövzulara, beynəlxalq məsələlərə dair çoxsaylı şeirləri vardır. Ədib böyükhəcmli əsərlər yazsa da, daim şeirlər də yazıb, bu janra da yaradıcılığının sonuna qədər sadiq qalıb.

AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun əməkdaşı Nərgiz İsmayılova "İki qocuğun Avropaya səyahəti və M.S.Ordubadinin görmək istədiyi Naxçıvan" mövzusunda çıxışında yazıçının ilk romanını "Təzə həyat" qəzetində çap etdirdiyini bildirib. Böyük ədibin bu romanında arzuladığı ideya və fikirləri bu gün Naxçıvanda aydın görmək olar. Bu gün qədim diyarımızda gedən inkişaf və tərəqqi, həyatın bütün sahələrində müsbət dəyişikliklər bunun bariz ifadəsidir.

C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyorları Şölə Novruzbəyli və Anar Eyvazovun ifasında ədibin "Millətpərvər inteligent", "Millət ataları" felyetonları, "Rüşvətlə mübarizə zamanı", "Molla və rəssam" şeirləri bədii qiraət olunub.

Sonra görkəmli yazıçının yubileyi münasibətilə təşkil olunmuş sərgiyə baxış olub.

**Əli RZAYEV**

*Dövlət Miqrasiya Xidmətində muxtar respublikamızda fəaliyyət göstərən mehmanxana nümayəndələrinin iştirakı ilə maarifləndirici tədbir keçirilib.*

## "Elektron xidmət" və "Onlayn ödəmə" bölmələrinin fəaliyyəti müraciətlərin operativ cavablandırılmasına şərait yaradıb



Tədbirdə Dövlət Miqrasiya Xidmətinin əməkdaşı Aysel Əliyeva "Dövlət Miqrasiya Xidməti muxtar respublika ərazisində turizmin inkişafına öz töhfəsini verməyə çalışır" mövzusunda çıxış edib. Qeyd olunub ki, bu gün muxtar respublikaya gələn hər bir əcnəbinin və vətəndaşlığı olmayan şəxsin qəbulu və qeydiyyatının aparılması sadələşdirilib. Miqrantların rahatlığının təmin edilməsi məqsədilə sərhəd-buraxılış məntəqələrinin miqrasiya bölmələrində qeydiyyat sadələşmiş formada aparılır. Eyni zamanda muxtar respublika ərazisində fəaliyyət göstərən mehmanxanalarla xidmət arasında yaradılmış "Elektron hökumət portalı" üzərindən aparılan elektron sənəd dövriyyəsinin də ölkəyə gələn əcnəbilərin qeydiyyata alınmasında böyük rolu vardır.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" 15 iyul 2011-ci il tarixli Fərmanının icrası ilə əlaqədar olaraq 2014-cü ilin aprel ayından 3 dildə vətəndaşların istifadəsinə verilən xidmətin rəsmi internet səhifəsi muxtar respublikanın təbliğində və təşviqində böyük rol oynayır. Belə ki, burada muxtar respublikanı əks etdirən şəkillərin yerləşdirilməsi, Naxçıvan Muxtar Respublikasının portal saytına keçidin verilməsi əcnəbilərdə həm muxtar respublika barədə ilkin təsəvvürün yaranmasına, həm də ölkəyə gəldiyi vaxtdan miqrasiya qanunvericiliyi ilə tanış olmaqla müraciətlərinin göndərilməsinə imkan yaradır.

Yaradılmış sayt üzərində "Elektron xidmət" və "Onlayn ödəmə" bölməsinin istifadəyə verilməsi, "Sual-cavab və müraciətlər" bölməsinin daim istifadəçilərə açıq olması əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin, eyni zamanda Azərbaycan Respublikası vətəndaşlarının məkandan asılı olmayaraq miqrasiya qanunvericiliyi ilə bağlı suallar ünvanlamalarına və verilən sualların xidmət tərəfindən operativ cavablandırılmasına şərait yaradır.

Diqqətə çatdırılıb ki, "Elektron hökumət portalı"nın istifadəsini olan Dövlət Miqrasiya Xidməti üçün konkret sahələr üzrə 9 xidmət növü müəyyənləşdirilib. Artıq bu sahələr Dövlət Miqrasiya Xidməti tərəfindən avtomatlaşdırılıb, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin, eyni zamanda Azərbaycan Respublikası vətəndaşlarının istifadəsinə verilib. Həmin xidmət növləri, əsasən, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin olduğu yer üzrə qeydiyyatı, müvəqqəti və daimi yaşaması, müvəqqəti olma müddətinin uzadılması, iş icazələrinin verilməsi və müddətlərinin uzadılması, Azərbaycan Respublikası vətəndaşlığına bərpa, miqrasiya orqanlarına işə qəbul, dövlət rüsumlarının və cərimələrin onlayn ödənilməsi ilə bağlı sahələri əhatə edir.

Adları qeyd edilən hər bir xidmət növü üzrə inzibati reqlamentlər hazırlanıb və Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin internet səhifəsi üzərində yerləşdirilib. İnzibati reqlamentlərdə, əsasən, xidmətin interaktiv və ya informativ olması, sənədləşmələr, hüquqi əsasları göstərilir. Hər bir müraciət edən şəxs inzibati reqlamentlərlə tanış olaraq müvafiq xidmət növü üzrə xidmətə müraciət edə bilər.

Sonra Dövlət Miqrasiya Xidmətinin əməkdaşı Qiyas Paşayev "Elektron hökumət portalı" üzərindən sənədlərin göndərilməsinin praktik icrasını əks etdirən video-slayd vasitəsilə tədbir iştirakçılarına məlumat verib.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**Kərəm HƏSƏNOV**

## Novruz bayramında süfrələrimizdə bolluq olacaq

### Naxçıvan şəhərindəki Mərkəzi bazarda bayram münasibətilə təşkil edilmiş yarmarkadan reportaj

***Neçə gündür ki, bayram ab-havası ilə yaşayan, Novruz ovqatlı muxtar respublika sakinlərinin sevincini başa düşmək çətin deyil. Ona görə ki, Novruz xalqımızın kökü yüz illərə söykənən ən əziz bayramıdır. Hamı bu əziz və müqəddəs bayramı könül açıqlığı, süfrə bolluğu ilə qarşılamağa çalışır və bunun üçün də heç bir çətinlik yoxdur.***



Bir vaxtlar məlum səbəblər ucbatından yaşadığımız çətinliklər artıq arxada qalıb. Xüsusilə də bayramlar ərəfəsində keçirdiyimiz daxili narahatçılıqlara son qoyulub. Bu gün dükan-bazarlarımızda bolluqdur. Necə deyərlər, istəsək quş südü, can dərmanı tapar, istənilən məhsullarla süfrəmizi bəzəyə bilərik. Buna həm maddi imkanlarımız var, həm də təminat baxımından dövlətimiz tərəfindən hərtərəfli şərait yaradılıb. Bu gün muxtar respublikanın ən ucqar dağ kəndlərinin belə, mağazalarına daxil olub, bayram üçün istədiyin məhsulları ala bilərsən. Kənd adamlarının hələ ötən payızda bayram üçün yaratdığı ehtiyat məhsullar da öz yerində. Bununla belə, artıq ənənə halını almış bayram yarmarkalarının təşkili də Novruzu təmtəraqla, istədiyimiz şəkildə keçirməyə imkan yaradıb. Hər il olduğu kimi, bu il də Naxçıvan şəhərindəki Mərkəzi bazar öz qapılarını əhalinin üzünə açıb.

Budur, biz də bazarda təşkil edilmiş yarmarkadayıq. İlk olaraq istehsalçı və istehlakçılarla görüşürük. Şərur rayonunun Yuxarı Daşarx kəndindən yarmarkaya məhsul gətirmiş Anar Rzayev deyir ki, Novruz xalqımızın ən qədim bayramlarındandır. Hamı çalışır ki, bu bayramda süfrəsi bol olsun. Ona görə də ailələr tərəfindən müxtəlif şirniyyatlar hazırlanır, səmənilər cücərdilir, digər işlər görülür. Bir neçə ildir ki, Naxçıvan şəhərində bayramqabağı təşkil olunan yarmarkalar bu əziz bayramı layiqincə qeyd etməyə imkan verir. Belə tədbir həm məhsul istehsalçılarının, həm də istehlakçıların ürəyincədir. Ona görə də yarmarka təşkilatçılarına minnətdarıq. Mərkəzi bazarda ənənəvi bayram yarmarkasının təşkilində əsas məqsəd süfrələrimizdə əsl bayram bolluğu yaratmaqdır.

Cavad Səfərov Şahbuz rayonunun Külüs kəndindən yarmarkaya məhsul gətirib. O da söhbətimizə qoşulur. Deyir ki, son bir neçə ildir, Naxçıvan şəhərində təşkil olunan bayram yarmarkasına məhsul satmağa gəlir: "Naxçıvan şəhərində belə bir bayram yarmarkasının təşkil olunması həm bizim kimi torpaq mülkiyyətçilərinə, həm də alıcılara şərait yaradır. Artıq bir neçə ildir ki, mən halal zəhmətlə əldə etdiyim məhsulları satmaq üçün bura gətirirəm. Bu il də xeyli məhsul gətirmişəm. Gətirdiyim ağartı məhsullarını iki saat müddətində satıb qurtarmışam. Bizə yaradılmış bu şəraitə görə dövlətimizə minnətdarlığımı bildirirəm".

Babək rayonunun Nehrəm kəndindən tərəvəz məhsulları gətirmiş Füzuli Cəfərov onlar üçün yaradılan şəraitdən razılıq edir. Bildirir ki, burada piştaxta və elektron tərəzi ilə təmin olunub. Məhsulun satışından da razıdır. Deyir ki, hər kəs bu bayram günündə süfrəsinin bol olmasını istəyir. Digər satıcı İsrafil Məmmədov isə Kəngərli rayonunun Xok kəndindən məhsul gətirib. Satdığı pendir, şor, yağ öz təsərrüfatındandır. Müsahibimiz deyir ki, bu cür yarmarkaların təşkili fərdi təsərrüfat sahiblərinə öz məhsullarını satmaq üçün hərtərəfli şərait yaradır. Hamı çalışır ki, yerli məhsul alsın, çünki yerli məhsullarımızın tamını heç nə ilə müqayisə etmək mümkün deyil.

Yarmarkaya gələn paytaxt sakinləri də yaradılmış şəraitə görə razılıqlarını bildirirdilər. Şəhər sakini Saday Quliyev deyir ki, muxtar respublikanın müxtəlif yerlərindən yarmarkaya gətirilən məhsullar həm keyfiyyəti, həm də qiymətinin ucuzluğu ilə diqqət çəkir. Ötən illərə qayıdan həmsöhbətim onu da xatırladır ki, neçə illər bundan əvvəl bayrama hazırlaşarkən xeyli çətinliklərlə üzləşirdik. Aldığımız məhsulların çoxu xarici ölkələrdən gətirilmiş məhsullar idi. Ancaq şükürlər olsun ki, indi hər kəsin istədiyi növdə və çeşiddə ala biləcəyi yerli məhsullarımız var.

Alıcılar yarmarkada sanitar-gigiyenik qaydalara əməl olunması üçün həyata keçirilən tədbirlərdən də razılıqla danışdılar. Belə tədbirlərin davamlı olacağına əminliklərini bildirdilər.

Yarmarkada öyrəndik ki, muxtar respublikanın kənd yaşayış məntəqələrindən buraya 120 təsərrüfat subyekti məhsul gətirib. 36 emal və istehsal müəssisəsindən yarmarkaya çıxarılan 114 adda, 210 çeşiddə məhsulun da alıcıları çoxdur. Bu məhsullar daha çox "Ləzzət", "Bərəkət", "Hilal", "Damla", "Fərda" və başqa müəssisələrə məxsusdur. Alıcılar 9 soyuducu anbarın və istixana kompleksinin məhsullarına da böyük maraq göstərirlər. Muxtar respublikanın quşçuluq təsərrüfatlarının məhsulları da istehlakçıların ürəyincədir. 9 idxalçı müəssisənin meyvə məhsullarının topdansatış qiymətinə pərakəndə satışı da təşkil edilib.

Məlumat üçün bildirək ki, yarmarka martın 20-dək davam edəcəkdir.

✍ **Muxtar MƏMMƏDOV**

---

*Muxtar respublikada reallaşdırılan və uzunmüddətli dövrə hesablanmış sosial-iqtisadi siyasətin əsas hədəflərindən biri qida təhlükəsizliyinin təmin olunmasıdır. İqtisadi təhlillər, faktlar və açıq müşahidələr göstərir ki, həyata keçirilən islahatların səmərəli nəticəsi kimi qida təhlükəsizliyinin kompleks və çoxcəhətli təşviqi, ixracyönümlü və daxili bazarda idxalı əvəzləyən strateji ərzaq məhsullarının xüsusi çəkisinin artırılması istiqamətində ciddi uğurlar əldə edilib.*

## "Naxçıvan" adından qeyri-qanuni istifadə etməklə istehsal olunmuş kontrafakt məhsullar aşkarlanıb




Qida istehsalı üzrə ixtisaslaşmış təsərrüfat subyektlərinin hərtərəfli dövlət qayğısı ilə əhatə olunması, bu sahədə texniki, innovasiya, logistika və marketinq dəstəyinin ardıcıl olaraq gücləndirilməsi, güzəştli kredit resurslarına çıxış imkanlarının genişləndirilməsi, orqanik məhsul istehsalının səmərəli təşviqi fonunda geni modifikasiya olunmuş məhsullardan istifadənin məhdudlaşdırılması, qida əlavələrindən, pestisidlərdən və emulqatorlardan istifadənin ciddi dövlət nəzarəti ilə əhatə olunması, son nəticədə, geniş ictimai rəydə xüsusi rəğbətə malik, ekoloji təmiz, insan sağlamlığı üçün faydalı və yüksəkkeyfiyyətli Naxçıvan məhsullarına özünəməxsus imic qazandırıb. Lakin bir sıra hallarda Naxçıvan məhsullarının yüksək imicinə xələl gətirə biləcək faktlara, saxtakarlıq hallarına rast gəlirik ki, bu da ciddi təəssüf doğurmaqla istehlakçıların yanıldılmasına səbəb olur.

Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsindən bildirilib ki, komitə tərəfindən daxili bazarda müşahidələr aparılıb. Müəyyən olunub ki, Abşeron rayonu, Xırdalan şəhəri, İlham Cəfərov küçəsi 45 ünvanında fəaliyyət göstərən fiziki şəxs S.G.Nabatov və Heydər Əliyev prospekti 184A ünvanında fəaliyyət göstərən fiziki şəxs N.S.Əsgərov tərəfindən istehsal olunmuş 3 çeşiddə kolbasa məhsulları müvafiq qanunvericiliyin tələbləri nəzərə alınmadan, qeyri-qanuni olaraq, Naxçıvan Muxtar Respublikası ilə əlaqəsi olmadan "Naxçıvan" adı ilə markalanıb. "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununa əsasən coğrafi göstəricidən istifadə həmin ərazidə xidmət göstərən sahibkarlar üçün nəzərdə tutulur. Eyni zamanda əmtəə nişanları, coğrafi göstəricilər və ya onlarla qarışdırılacaq dərəcədə oxşar olan nişanlarla qeyri-qanuni təchiz olunan mallar kontrafakt məhsullar hesab edilir. Belə məhsullara rast gəldikdə Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinə və Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinə operativ məlumat verilməsi xahiş olunur.

Aşkar olunmuş saxtakarlıq hallarına qarşı mübarizə tədbirləri çərçivəsində müvafiq hüquqi prosedurlar başladılıb.

**Xəbərlər şöbəsi**

---

## "Ordubadda Novruz" adlı rəsm müsabiqəsinə yekun vurulub



*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Təhsil Nazirliyi və Rəssamlar Birliyinin birgə təşkilatçılığı ilə Ordubad şəhərindəki Mədəniyyət Evində ordubadlı yeniyetmə və gənclər arasında "Ordubadda Novruz" mövzusunda rəsm əsərlərindən ibarət sərgi-müsabiqə keçirilib.*

Sərgi-müsabiqədə çıxış edən Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev bildirib ki, fond tərəfindən keçirilən tədbirlər yalnız Naxçıvan şəhəri ilə məhdudlaşmır, muxtar respublikanın bütün bölgələrini əhatə etməklə tədbirlər keçirilməsi daim diqqət mərkəzində saxlanılır. Yeniyetmə və gənclərin iştirakı ilə intellektual oyunların, yaradıcılıq müsabiqələrinin və digər tədbirlərin təşkilində məqsəd bölgələrdə yaşayan istedadlı gəncləri üzə çıxarmaq və onların yaradıcılıq potensialını inkişaf etdirməkdir. "Ordubadda Novruz" mövzusunda sərgi-müsabiqənin keçirilməsi də məhz bu məqsədə xidmət edir.

Məmməd Babayev qeyd edib ki, ölkəmizin digər regionlarından və muxtar respublikamızın rayonlarından fərqli olaraq Ordubadda Novruz özünəməxsus şəkildə qeyd edilir. Keçirilən sərgi-müsabiqədə də bu amil nəzərə alınıb və gənclər tərəfindən maraqlı işlər təqdim olunub.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva çıxış edərək bildirib ki, Ordubad rayonunda keçilən ustad dərsləri buradakı istedadlı gənclərin üzə çıxarılmasında mühüm rol oynayıb. Sərgi-müsabiqəyə təqdim edilən işlər öz texnikası, yanaşma tərzi baxımından daha dolğun və məzmunlu hazırlanıb, gənc rəssamların gələcəkdəki fəaliyyəti baxımından nikbin fikirlər deməyə əsas verib.

Ülviyyə Həmzəyeva gənc rəssamlara gələcəkdəki fəaliyyətlərində uğurlar arzulayıb və qalibləri təbrik edib.

Təhsil Nazirliyinin əməkdaşı Rəşad Adıgözəlov və sənətşünas Nizami Alıyev keçirilən tədbirlərin əhəmiyyətindən danışıblar, qalibləri təbrik ediblər.

35 müxtəlif işin təqdim edildiyi "Ordubadda Novruz" sərgi-müsabiqəsinin münsiflər heyətinin rəyinə əsasən, 1 birinci, 2 ikinci, 3 üçüncü və 6 həvəsləndirici yer seçilərək qalib elan olunub, qaliblərə təşkilatçıların diplomları və hədiyyələr təqdim edilib.

Sonra sərgiyə baxış olub.

**Xəbərlər şöbəsi**

---

***Naxçıvan şəhərindəki "N" hərbi hissədə Naxçıvan şəhər tam orta məktəblərinin komandaları arasında "Şahin" hərbi-idman oyunu keçirilib. Yarışda 17 tam orta məktəbin komandası mübarizə aparıb.***

## "Şahin" hərbi-idman oyununda 17 komanda mübarizə aparıb

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Tədbirin açılış mərasimində çıxış edən Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov, Əlahiddə Ümumqoşun Ordusunun zabiti, polkovnik Mirqiyas Rüstəmov, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin nümayəndəsi, kapitan Rəcəb Səfərov və digərləri hərbi-vətənpərvərlik tərbiyəsi haqqında danışıb, iştirakçılara uğurlar arzulayıblar.

Hərbi-idman oyununda komandalar sıra hazırlığı, patronun darağa doldurulması və boşaldılması, avtomat silahın sökülməsi və yığılması, tüfəngdən hədəfə atəşaçma, fiziki hazırlıq, manеələrin dəf olunması, mülki müdafiə hazırlığı və qərargah çadırının qurulması mərhələləri üzrə qüvvələrini sınayıblar.

Yekun nəticələrə əsasən, Naxçıvan şəhər 15 nömrəli tam orta məktəbin komandası bütün rəqiblərinə qalib gələrək I yerə, 2 nömrəli tam orta məktəbin komandası II yerə, 3 və 1 nömrəli tam orta məktəblərin komandaları isə III yerlərə layiq görülüblər.

Sonda qalib komandalar təşkilatçıların diplom, fəxri fərman və kubokları ilə mükafatlandırılıblar.

Qeyd edək ki, I və II yerlərin qalibləri olan 15 və 2 nömrəli tam orta məktəblərin komandaları aprel ayında keçiriləcək Naxçıvan Muxtar Respublika zona birinciliyində Naxçıvan şəhərini təmsil edəcəklər.

✍ **Ceyhun MƏMMƏDOV**

---


### "Xidmət" Açıq Tipli Səhmdar Cəmiyyəti səhmdarlarının nəzərinə!

Naxçıvan şəhəri, Xətai küçəsi 6-da yerləşən "Xidmət" ATSC-nin inzibati binasında 22 may 2017-ci il tarixdə saat $11^{00}$-da səhmdarların ümumi yığıncağı keçiriləcəkdir. Yığıncağın gündəliyində aşağıdakı məsələlər durur:

1. Səhmdarların ümumi yığıncağının reqlamentinin təsdiqi
2. Cəmiyyətin 2016-cı ildə maliyyə-təsərrüfat fəaliyyətinə dair idarə heyəti sədrinin hesabatı
3. 2017-ci ildə cəmiyyətin fəaliyyət proqramına baxılması
4. Sair məsələlər.

***İdarə heyəti***

**Bildiriş**

"Sosial xidmətlərə dəstək" ictimai birliyi (VÖEN-0200712541) fəaliyyətini dayandırdığından ləğv olunur.



**ŞƏRQ qapısı**

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 223